**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin "9" mart 2017-ci il tarixli 91 nömrəli əmri ilə təsdiq edilmişdir**

2017-2018-ci dərs ili üçün Azərbaycan Respublikası Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumtəhsil müəssisələri və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumtəhsil müəssisələrinin I sinfinə şagird qəbulunun aparılması Qaydaları

## 1.Ümumi müddəalar

"2017-2018-ci dərs ili üçün Azərbaycan Respublikası Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumtəhsil müəssisələri və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumtəhsil müəssisələrində I sinfinə şagird qəbulunun aparılması Qaydaları" (bundan sonra Qaydalar) Azərbaycan Respublikasının təhsil qanunvericiliyinin tələblərinə uyğun hazırlanmışdır. Bu Qaydalar Azərbaycan Respublikası Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumtəhsil müəssisələri və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumtəhsil müəssisələrində 2017-2018-ci dərs ili üçün birinci sinfə şagird qəbulunun onlayn qeydiyyatı və sənəd qəbulu məsələlərini tənzimləyir.

## 2. Qeydiyyat

2.1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumtəhsil müəssisələri və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumtəhsil müəssisələrində I sinfə şagird qəbulu elektron sistem vasitəsilə aparılır. Sənəd qəbulu www.mektebeqebul.edu.az elektron sistemi vasitəsilə həyata keçirilir.

2.2. Hər hansı səbəbdən elektron qeydiyyatdan keçə bilməyən valideynlərə (qanuni nümayəndələrə) alternativ qeydiyyat mərkəzlərində sistem administratoru tərəfindən müvafiq səlahiyyətlər verilmiş məsul şəxsin köməyi ilə elektron qeydiyyatın aparılmasına şərait yaradılır.

2.3. Elektron ərizənin qeydiyyatı prosesində məktəbi, təlim dilini və müəllimi valideyn (qanuni nümayəndə) seçir.

2.4. Onlayn qeydiyyat zamanı aşağıda göstərilən kateqoriyalardan olan uşaqların məktəbə qəbulu üzrə üstünlük hüququ təmin olunmalıdır:

2.4.1. valideynləri (qanuni nümayəndələri) məktəbin müəyyən edilmiş mikroərazisində yaşayanlar;

2.4.2. valideynləri (qanuni nümayəndələri) həmin məktəbdə işləyənlər;

2.4.3. bacısı və ya qardaşları həmin məktəbdə oxuyanlar.

2.5. Azərbaycan Respublikası Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumtəhsil müəssisələrinə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən 160 nömrəli klassik gimnaziya və 287 nömrəli "Zəkalar" liseyinə 2017-2018-ci dərs ili üçün I sinfə, ilk növbədə həmin ümumtəhsil müəssisələrinin müəyyən edilmiş mikroərazisində yaşayan vətəndaşların ərizələrinin qeydiyyatı aparılır. Qeyd olunan ümumtəhsil müəssisələrinə müəyyən edilmiş mikroərazidə yaşayan vətəndaşların uşaqları müsabiqədənkənar qəbul edilir. Digər ərazilərdə yaşayan valideynlərin (qanuni nümayəndələrin) uşaqları isə həmin ümumtəhsil müəssisələrinə yalnız müsabiqə yolu ilə qəbul üçün qeydiyyatdan keçə bilərlər. Şagirdlərin siniflərdə komplektləşdirilməsi müsabiqədən sonra həyata keçirilir.

Bakı Avropa liseyi, Respublika İncəsənət gimnaziyası və Bülbül adına orta ixtisas musiqi məktəbini seçən valideynlərin (qanuni nümayəndələrin) uşaqları yalnız müsabiqə yolu ilə qəbul üçün qeydiyyatdan keçə bilərlər.

2.6. Ərizələrin onlayn qeydiyyatı 2017-ci il mart ayının 15-dən başlayır və 2017-ci il sentyabr ayının 15-də başa çatır.

## 3. Uşaqların məktəbə qəbulu

3.1. 2017-2018-ci dərs ili üçün ümumtəhsil məktəblərinin I sinfinə fiziki və əqli cəhətdən normal inkişaf etmiş 2017-ci il sentyabr ayının 15-nə kimi 6 yaşı tamam olmuş; Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada xüsusi istedadlı uşaqların vaxtından əvvəl birinci sinfə qəbulu üzrə müsahibədən uğurla keçmiş; 16.09.2011-ci il tarixdən 31.12.2011-ci il tarixədək olan dövrdə anadan olmuş və dövlət ümumtəhsil müəssisələrində ödənişsiz məktəbəhazırlıq qrupunu bitirmiş, həmçinin Təhsil Nazirliyinin birbaşa tabeliyində olan ümumtəhsil müəssisələrinə müsabiqədə iştirak edib, uğur qazanmış uşaqlar qəbul edilir.

3.2. I sinfə elektron ərizə vermiş valideyn (qanuni nümayəndə) ümumtəhsil müəssisəsinə aşağıdakı sənədləri təqdim etməlidir:

3.2.1. Valideynin şəxsiyyətini təsdiq edən sənədin əsli və surəti;

3.2.2. Azərbaycan Respublikasının vətəndaşları üçün uşağın doğum haqqında şəhadətnaməsi və ya şəxsiyyət vəsiqəsi;

3.2.3. Azərbaycan Respublikasının vətəndaşlığını sonradan almış və övladının doğum haqqında şəhadətnaməsi əvvəllər vətəndaşı olduğu ölkə tərəfindən verilmiş şəxslər üçün Azərbaycan Respublikasının 16 yaşına çatanadək vətəndaşa verilən şəxsiyyət vəsiqəsi və ya xarici ölkənin doğum haqqında şəhadətnaməsi;

3.2.4. xarici ölkə vətəndaşları üçün Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsi;

3.2.5. digər ölkələrin vətəndaşları olan qaçqınlar üçün Birləşmiş Millətlər Təşkilatının Qaçqınların İşləri üzrə Ali Komissarlığının Himayə Sənədi;

3.2.6. xarici pasport;

3.2.7. uşağın sağlamlığı haqqında tibbi arayışı (forma 26U);

3.2.8. 2 (iki) ədəd 3x4 ölçüdə rəngli fotoşəkil;

3.2.9. dövlət ümumtəhsil müəssisəsində məktəbəhazırlıq qrupunu bitirməsi haqqında arayış (əgər dövlət ümumtəhsil məktəbində məktəbəhazırlıq qrupunda təhsil alırsa);

3.2.10. valideynin (qanuni nümayəndənin) "Şəxsi Kabinet"indən çap olunmuş "Ərizə" (mütləqdir).

3.3. Sənədlərin yoxlanılması və qəbulu prosesində aşağıdakı şərtlər əsas götürülür:

3.3.1. ilk növbədə mektebeqebul.edu.az saytından elektron qeydiyyat zamanı valideynin (qanuni nümayəndənin) özü və uşaq haqqında daxil etdiyi məlumatlar qeyd olunan sənədlərin əsli ilə üzləşdirilərək yoxlanılır və həmin sənədlərin surəti saxlanılaraq əsli dərhal valideynə (qanuni nümayəndəyə) qaytarılır. Sənədlərin yoxlanılması və qəbuluna birbaşa müəssisənin rəhbəri məsuliyyət daşıyır;

3.3.2. bütün məlumatların düzgünlüyü təsdiq edildiyi halda sənədlər qəbul edilir, valideynə (qanuni nümayəndəyə) bu barədə qəbz verilir və məktəb üzrə məsul şəxs tərəfindən elektron sistemdə "Qəbul edildi" düyməsi sıxılır.

3.4. Uşağın ümumtəhsil müəssisəsinin birinci sinfinə qəbulundan aşağıdakı hallarda imtina edilə bilər:

3.4.1. elektron ərizənin qeydiyyatı zamanı məlumatların bilərəkdən saxtalaşdırıldığı halda;

3.4.2. qanunvericiliyin və bu qaydaların tələblərinin pozulduğu digər hallarda.

3.5. Bütün hallarda imtina təhsil müəssisəsinin məsul şəxsi tərəfindən

əsaslandırılmalıdır. "İmtina et" düyməsi basıldıqdan sonra sistemdə bunun üçün xüsusi nəzərdə tutulmuş sahəyə imtinanın səbəbi daxil edilməlidir. Bundan sonra valideynə (qanuni nümayəndəyə) apelyasiya komissiyasına (komissiyanın ünvanı və iş rejimi barədə elan nəzərəçarpan yerdə asılmalıdır) müraciət etmək hüququnun olduğu izah edilir.